**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# Q Ə R A R

**№ 2**

**Bakı şəhəri** **07 avqust 2017-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Zarema Gülağa qızı Manafovanın Bakı şəhər Statistika İdarəsinin Qiymət statistikası sektorunun müdiri vəzifəsinin tutulması üçün 2017-ci il iyulun 25-də keçirilən daxili müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Bakı şəhər Statistika İdarəsinin Qiymət statistikası sektorunun baş məsləhətçisi Manafova Zarema həmin sektorun müdiri vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2017-ci il 15 may tarixində elan edilmiş daxili müsahibədə iştirak etmişdir. Dövlət Statistika Komitəsinin 2017-ci il 19 iyul tarixli 106/t nömrəli əmri ilə Dövlət Statistika Komitəsinin, Dövlət İmtahan Mərkəzinin nümayəndələrindən və müstəqil ekspertdən ibarət müsahibə komissiyaları yaradılmışdır. Müsahibə 2017-ci il iyulun 25-də Dövlət Statistika Komitəsinin İnsan resursları və hüquq şöbəsinin müdiri Arif Hüseynov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Fuad Mayılov və müstəqil ekspert Saleh Mövlamovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Z.Manafovaya müsahibə komissiyasının üzvlərindən A.Hüseynov və S. Mövlamov 16, F.Mayılov isə 14 bal vermiş və nəticədə iştirakçı 15.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına müraciət etmişdir. Apellyasiya şikayətinə baxılması ilə əlaqədar müsahibə komissiyası üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi F.Mayılovun rəyinə əsasən namizəd Azərbaycan Respublikasının dövlət dilində danışmağa çətinlik çəkir. Bu hətta onun Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına ünvanlandığı ərizədə etdiyi səhvlərdə də öz əksini tapmışdır. Namizədin müsahibə zamanı müsahibə komissiyasının üzvlərinin suallarını cavablandırarkən etdiyi səhvlər və sualları cavablandıra bilməməsi biliyinin, peşə hazırlığının və ümumi dünyagörüşünün iddia etdiyi vəzifənin tələblərinə uyğun olmadığını göstərir. Namizədin qanunvericilik və digər nəzəri bilikləri iddia etdiyi vəzifənin tələblərinə cavab vermir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Manafova Zarema Gülağa qızının 25 iyul 2017-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Bakı şəhər Statistika İdarəsinin Qiymət statistikası sektorunun müdiri vəzifəsinin tutulması üçün 2017-ci il iyulun 25-də keçirilən daxili müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S. Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**

Q.Əliyev

V.Məmmədəlizadə

A.İbrahimova

G. Məmmədov

S. Süleymanova

V.Alıyeva

Ö. Vəlizadə